**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BÖYÜK QAFQAZIN CƏNUB YAMACININ TƏBİİ-COĞRAFİ ŞƏRAİTİNİN REKREASİYA POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ
## (Mazım-Şin çayları arası)

İxtisas: 5408.01 - Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası

Elm sahəsi: Coğrafiya

**İddiaçı: Günay Qulu qızı Məmmədova**

Fəlsəfə doktoru
Elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI − 2025**

Dissertasiya işi Lənkəran Dövlət Universiteti "Tarix-coğrafiya və incəsənət" fakültəsinin "Coğrafiya və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya elmləri doktoru, dosent
**Sevil Yunis qızı Quliyeva**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, professor
**İlham İldırım oğlu Mərdanov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Səidə Marif qızı Zeynalova**

coğrafiya üzrə fəlsəfə doktoru
**Ləman Həsən qızı Həsənəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın sədri: coğrafiya elmləri doktoru, dosent
**Stara Əbülfəz qızı Tarixazər**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi * BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş. * Ministry of Science and Education of the Republic of Azerbaijan * BAKU STATE UNIVERSITY l.e.p.l.
BAKI DÖVLƏT UNİVERSİTETİ
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
(S.A.A.)
"09" 04 2025

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Müasir dövrümüzdə təbii-coğrafi şəraitin rekreasiya potensialından istifadə təbii və sosial-iqtisadi geosistemlərin maddi imkanlarını nəzərə alınmaqla əhalinin məşğulluq səviyyəsinin yaxşılaşdırılması və onların həyat keyfiyyətinin artırılması, sağlamlıqlarının bərpası və regional inkişafın dəstəkçisi qismində çıxış edir. Rekreasiya potensialı dedikdə biz öz unikallığı, tarixi və ya bədii dəyəri, estetik cəlbediciliyi və insan sağlamlığı üçün faydalı əhəmiyyət kəsb edən turizm xidmətlərinin istehsalını nəzərdə tuturuq. Çünki regional sosial-iqtisadi inkişafın perspektiv göstəricilərindən biri məhz turizm-rekreasiya potensialı ilə bağlıdır.

Azərbaycanın təbii-coğrafi şəraiti, onun rekreasiya ehtiyatları, eləcə də onlardan istifadə, istirahətin təşkili, sağlamlığın və əmək qabiliyyətliyin bərpası istiqamətində vacib faktorlardan biri sayılır. Bu istiqamətdə aparılan işlərin müsbət nəticəsi kimi respublikamızda turizm-rekreasiya ehtiyatlarının təsərrüfat dövriyyəsinə cəlb olunması son illər xeyli artmışdır. Tədqiq olunan Böyük Qafqazın cənub yamacı ərazisində turizm təsərrüfatının inkişafı ilk növbədə yerli və xarici turistlərin regiona cəlb edilməsi üçün zəngin təbii, tarixi və mədəni mərkəzlərə malik olması ilə bağlıdır. Lakin bu mərkəzlərdə məqsədli turizm planlaşdırılmasının təşkili, marketinq fəaliyyətinin tənzimlənməsi, çağdaş sistemində dəyərləndirmənin aparılması, milli ideologiyaya əsaslanan turizm strategiyasının işlənilməsi və CİS mühitində mükəmməl məlumat bazasının hazırlanması işi demək olar ki, aparılmır. Məhz bu baxımdan, Böyük Qafqazın cənub yamacının tədqiq olunan bölgəsində təbii-coğrafi şəraitin rekreasiya potensialının araşdırılması və qiymətləndirilməsi olduqca aktualdır. Bu da çoxşaxəli turizm-rekreasiya ehtiyatlarının daha geniş və hərtərəfli təhlil etdirilməsində son vaxtlar geniş vüsət almış və ekoloji gərginlik yaratmadan əlavə gəlir gətirən iqtisadiyyatın yeni və perspektivli istiqamətlərindən birini təmsil edir.

Rekreasiya ehtiyatlarının turizm təsərrüfatında zəruriliyi ideyasını irəli sürmüş mütəxəssislər hesab edir ki, təbii turizm obyektlərinin elmi əsaslarla öyrənilməsi, onların turizm dövriyyəsinə cəlb edilməsi və regional sosial-iqtisadi inkişaf üçün mühüm

əhəmiyyət kəsb edən amillərin əsaslandırılması olduqca vacib şərtlərdən biridir. Bu baxımdan, tədqiq olunan ərazidə ekoparkların təşkili üçün böyük rekreasiya potensialının mövcudluğu və onların əsasında ekoturizm marşrutlarının elmi və tətbiqi əhəmiyyətə malik olması yüksək dəyərləndirilir.

Böyük Qafqazın cənub yamacı ayrı-ayrı tədqiqatçılar tərəfindən öyrənilmişdir. Ə.T. Əsgərov, H.B. Soltanova, Z.T. İmrani, B.Ə. Bilalov, V.S. Dərgahov, K.Z. Zeynalova, Ç.G. Gülalıyev, G.R. Ağakişiyeva və digər tədqiqatçılar təbii-coğrafi şəraitin rekreasiya potensialının qiymətləndirilməsi, təbii-turizm anlayışı, turizm-rekreasiya potensialının yayılma arealları, onların mənimsənilməsi dərəcələri və başqa istiqamətlərdə tədqiqat işləri aparmış və müvafiq nəticələr əldə etmişlər.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Böyük Qafqazın cənub yamacı Mazım və Şin çayları arasındakı ərazi götürülmüşdür. Ərazi təbii-coğrafi şəraitinin xeyli zənginliyi və müxtəlifliyi ilə səciyyələnir. Tədqiqatın konseptual baxımdan predmetini rekreasiya ehtiyatlarının turizm təsərrüfatı dövriyəsinə cəlb edilməsinin təmin edilməsi ilə ərazinin təbii-coğrafi şəraitinin, eləcə də təbiət abidələrinin öyrənilməsi, onlardan səmərəli istifadə və mühafizəsi məsələlərini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiq edilən ərazi spesifik coğrafi və strateji mövqeyi ilə seçilir və rekreasiya potensialı görə olduqca yüksək qiymətləndirilir. Tədqiqatın əsas məqsədi Böyük Qafqazın cənub yamacının təbii-coğrafi şəraitinin xüsusiyyətlərini araşdırmaqla onun rekreasiya potensialını təşkil edən fərdi və kompleks obyektlərin aşkar edilməsi və öyrənilməsi, onlardan səmərəli istifadə və mühafizəsi məsələlərinin araşdırılması ilə yanaşı, müvafiq təkliflərin işlənilib hazırlanmasıdır. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- təbii-coğrafi şəraitin və rekreasiya potensialının araşdırılması;
- təbii-turizmlə bağlı regional inkişaf xüsusiyyətlərinin təhlili;
- turizm-rekreasiya potensialına malik olan ərazilərin səciyyələndirilməsi;
- ekoturizm obyektlərinin təsnifatının işlənilib hazırlanması;

- təbiət abidələrinin təsviri və onların turizm məqsədi ilə səmərəli istifadəsi və mühafizəsi ilə əlaqədar tədbir və təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqat işinin yerinə yetirilməsində tarixi, statistik, müqayisə, sorğu, kartoqrafik, aerokosmik, çöl tədqiqatı və s. metodlardan istifadə edilmişdir. Tədqiqat üçün zəruri məlumatların toplanmasında aşağıdakı vasitələrdən istifadə edilmişdir: aerofoto şəkillər, çöl ekspedisiyaları, arxiv və fond materialları.

Tədqiqatın informasiya bazasını akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun, Turizm Agentliyinin, Dövlət Statistika Komitəsinin və bu sahədə tədqiqat aparan alimlərin materialları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Təbii-rekreasiya obyektlərinin təsnifatı və əsas xüsusiyyətlərinin qruplaşdırılması;
2. Təbii-coğrafi şəraitin diaqnostik qiymətləndirilməsi və onun rekreasiya potensialından istifadə imkanları;
3. Rekreasiya potensialının turizm əhəmiyyəti və ərazi təşkilinin rayonlaşdırılması.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin nəticələrinə əsasən əldə edilmiş yenilikləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- ilk dəfə Böyük Qafqazın cənub yamacının (Mazım və Şin çayları arası) təbii şəraitinin turizm-rekreasiya potensialının qiymətləndirilməsi kompleks təbii amillər əsasında aparılmışdır;
- ilk dəfə Mazım və Şin çayları arası ərazisinin təbii-rekreasiya obyektlərinin diaqnostik təhlili aparılmış və rekreasiya potensialı qiymətləndirilmişdir;
- kosmik şəkillərin ArcMap 10.8 proqram təminatı əsasında (1:200.000 miqyaslı) vizual deşifrələnməsi nəticəsində turizm marşrutları təsnifatlaşdırılmışdır;
- ilk dəfə olaraq Böyük Qafqazın cənub yamacı (Mazım və Şin çayları arası) bölgəsinin təbii-coğrafi şəraitinin rekreasiya potensialı ArcMap 10.8 proqram təminatında rayonlaşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Əhalinin həyat səviyyəsinin yüksəldilməsi baxımından tədqiq olunan ərazinin təbii ehtiyat potensialından turizm-rekreasiya məqsədilə istifadə edilməsi olduqca zəruridir. Çünki təbii şəraitin rekreasiya potensialından səmərəli istifadə bir sıra sosial-iqtisadi problemlərin həllində, həmçinin regional inkişafda mühüm halqa rolunu oynayaraq kiçik və orta sahibkarlığın stimullaşdırılmasında, məşğulluğun səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

Tədqiqat işinin nəzəri hissəsində rekreasiya potensialından səmərəli istifadəyə həsr olunmuş ədəbiyyat mənbələrində əksini tapmış mütərəqqi fikir və ideyalardan, bu sahədə irəli sürülmüş müddəalardan və dünya təcrübəsindən geniş istifadə edilmişdir.

Tədqiqat işinin praktiki əhəmiyyəti kəsb edən nəticələrindən Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin uyğun idarə və müəssisələrində, ölkənin digər regionlarında bu istiqamətdə tədqiqatların aparılmasında, ali məktəblərin müvafiq fakültələrində tədris proqramlarında, dərslik, dərs vəsaitlərinin hazırlanmasında, eləcə də bakalavr buraxılış və magistr dissertasiya işlərinin yazılmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri və müddəaları: “Azərbaycanda və Rusiyada İnsan Coğrafiyası: XXI əsrdə inkişafının əsas yolları”, İctimai-coğrafiyaçılarının beynəlxalq (Azərbaycan-Rusiya) elmi konfransında, (Bakı, 2019); “Aqrar təsərrüfatlar inkişafının yeni istiqamətləri və ətraf mühitin mühafizəsi”, respublika elmi konfransında, (Bakı 2021); Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98- ci ildönümünə həsr olunmuş “Azərbaycanda xalq, dövlət və ordu birliyinin gücü” adlı respublika elmi konfransında, (Lənkəran, 2021); Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” mövzusunda multidissiplinar respublika elmi-praktik konfransında, (Bakı, 2021); “Çağdaş dönəmdə türk dünyasının aktual problemləri” respublika elmi konfransında, (Lənkəran, 2021); "Belarus Dövlət Kənd Təsərrüfatı Akademiyası" Təhsil Müəssisəsinin Baş İdarəsi Torpaq idarəçiliyində

aktual problemlər və onların həlli yolları, beynəlxalq elmi-praktik konfransında, (Qorki, 2021); Coğrafiyanın müasir problemləri: Elm və təhsilin inteqrasiyası, beynəlxalq elmi-praktiki konfransında, (Bakı, 2022); İpək Yolu beynəlxalq elmi tədqiqat konfransında, (Lənkəran 2022); "Bioloji müxtəlifliyin qorunmas və ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkşafa doğru" mövzusunda beynəlxalq elmi konfransında, (Lənkəran, 2023) məruzə edilmişdir. Dissertasiya işinin məzmununa dair 14 elmi məqalə və konfrans materialı çap olunmuşdur.

Dissertasiya işində ekspedisiya-çöl tədqiqatları, eləcə də peyk şəkillərinin deşifrələnməsi və ArcMap 10.8 proqram təminatında çəkdiyimiz baza xəritələrindən Turizm Agentliyində, Ekolojiya və Təbii Sərvətlər Nazirliyində, həmçinin turizm-rekreasiya işi ilə bağlı hazırlanan dövlət proqramlarında geniş istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Coğrafiya və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi, quruluşu və əsas məzmunu.** Dissertasiya işi giriş - 5 səhifə, 4 fəsil, o cümlədən I fəsil – 15 səhifə, II fəsil – 40 səhifə, III fəsil - 30 səhifə, IV fəsil - 33 səhifə, nəticə - 3 səhifə, 120 adda istifadə olunmuş ədəbiyyat siyahısından, 7 cədvəl, 8 qrafik, 19 şəkildən ibarətdir. Dissertasiya işi 140 kompüter səhifəsi həcmindədir, 199 944 işarədən ibarətdir.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, tədqiqatın müdafiəsinin əsas müddəaları müəyyən edilir, elmi yenilik, nəzəri tədqiqatın təcrübi əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin aparıldığı təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrıca həcmi və simvollarla ümumi həcmi barədə məlumat verilir.

I fəsil "**Böyük Qafqazın cənub yamacının təbii-coğrafi şəraitinin müasir vəziyyəti, ərazinin öyrənilməsinin elmi-nəzəri və metodiki əsaslarına**" həsr olunmuşdur. Təbii-coğrafi şərait və təbii ehtiyatlar rekreasiya resurslarının əsasını təşkil edir. Qısamüddətli istirahətlə əlaqəli olan iqlim ehtiyatlarından müalicə məqsədli istifadə,

açıq hava oyunları, su hövzələrində üzgüçülük, balıq ovu, qayıqla gəzinti, meşələrdə giləmeyvə yığmaq və s. bu kimi müxtəlif növ istirahət növləri təbii rekreasiyanın inkişafına təkan verən amillərdir. Təbii-turizm anlayışını geniş şəkildə tədqiq edən Z.T. İmrani onun rekreasiya potensialının elmi əsaslarla vacibliyini qeyd etmiş, mürəkkəb anlayış kimi təbii-turizmi rekreasiya potensialı ilə eyniləşdirmişdir. O, coğrafi mühiti təbii turizmin aparıcı qüvvəsi kimi dəyərləndirir və təbii-turizm ehtiyatlarının planlaşdırılmasında onun səmərəliliyini görərək rekreasiya resurslarının insan sağlamlığının inkişafında və sosial-iqtisadi fəaliyyətində mühüm rol oynadığını bildirir[1]. Lakin bəzi ədəbiyyatlarda təbii rekreasiya ehtiyatları fiziki, bioloji və informasiya resursları kimi təsnifləşdirilir. Fiziki rekreasiya ehtiyatları dedikdə cansız təbiətin geoloji, geomorfoloji, iqlim, hidroloji, termal sular kimi komponentləri nəzərdə tutulur. Bioloji rekreasiya ehtiyatlarına torpaq, fauna və flora, bir sözlə vəhşi təbiətin bütün komponentləri aid edilir. İnformasiya rekreasiya resurslarına isə təbiət abidələrinin cəlbediciliyi, ərazinin füsunkarlığı kimi insanların emosional və mənəvi istirahətinə müsbət təsir edən təbiət aiddir.

Təbii rekreasiya ehtiyatlarının tərkib hissələrindən biri kimi təbii-coğrafi şəraitin turizm məqsədli istifadəsi də aid edilir. Bunlara: iqlim, geoloji-tektonik quruluş, oroqrafiya, landşaftlar, hidroqrafik şəbəkə, bitki örtüyü, heyvanlar aləmi və s. aiddir.

Böyük Qafqazın cənub yamacının ***iqlim*** şəraitinin formalaşmasına günəş radiasiyası, ərazinin dəniz səviyyəsindən hündürlüyü, əraziyə daxil olan müxtəlif istiqamətli hava kütlələri, həmçinin dağ yamacları, makro və mikro atmosfer sirkulyasiya prosesləri, səth örtüyü mühüm dərəcədə təsir edir. İqlimin rekreasiya potensialı turistlərin sağlam istirahət prosesinin təşkili ilə müəyyən edilir. Çünki müəyyən iqlim şəraitində iqlim terapiyası və günəş vannasının qəbulu kimi rekreasiya fəaliyyətinin həyata keçirilməsi mümkündür. Bu baxımdan, tədqiq olunan ərazinin iqlim göstəriciləri təbii-turizm ehtiyatlarının inkişafı üçün əlverişli şərait yaradır.

---

[1] Imrani, Z.T., Huseynzade, A.I., & Bilalov, B.A. Priority development areas of nature tourism resources in Shaki-Zagatala economic and geographic region // Geojournal of Tourism and Geosites, − 2024. No. 54(2), − pp. 921-926.

Tədqiqat ərazisi olan Azərbaycan şimal-qərb bölgəsinin ***geoloji-tektonik quruluşu*** qədim geoloji inkişaf tarixinə malikdir və müxtəlif geodinamiki vahidlərin təmasında formalaşmışdır. Ərazi mürəkkəb geoloji-tektonik quruluşa malik olduğu üçün onun rekreasiya potensialı da yüksək qiymətləndirilir. ***Oroqrafiya*** isə təbii-turizm ehtiyatlarının cəlbediciliyi ilə seçilən əsas komponentlərindən biridir. Tədqiq olunan ərazinin çox mürəkkəb geomorfoloji quruluşa malik olması burada denudasion-struktur, sturktur-erozion dağlar, akkumulyativ düzənliklər və platoların yaranmasına səbəb olmuşdur. Ərazinin kəskin parçalanmaya məruz qalması və əsasən dağlıq relyefə malik olması burada haykinq və treykinq səfərlərinin, həmçinin alpinizm və buzadırmanma kimi turizm növlərinin təşkilinə əlverişli şərait yaradır.

Təbii-coğrafi şəraitin əsas ehtiyatı kimi ***landşaftlar*** ərazinin rekreasiya potensialının demək olar ki, ən güclü komponenti hesab olunur. Landşaftların rekreasiya potensialı qiymətləndirilərkən vacib olan ünsür estetik cəlbediciliyin olmasıdır. Lakin təsərrüfatın (əsasən, kənd təsərrüfatı) ərazi təşkili və yaşayış məskənlərinin salınmasında landşaftlara biganəlik və onların həddən artıq yüklənməsi ərazinin rekreasiya potensialını aşağı salmışdır.

***Hidroqrafik şəbəkə*** cəlbedici rekreasiya potensialı kimi dəyərləndirilir. Tədqiq olunan ərazinin çay şəbəkə sıxlığı 0,49-0,62 $km/km^2$ olub, qərbdən şərqə doğru (Əlicançay üçün 0,47 $km/km^2$) azalır. 2500 m-dən hündür olan ərazilərdə yağıntıların az olması, bitki örtüyünün zəif inkişafı çay şəbəkə sıxlığının azalmasına səbəb olmuşdur. Çayların axım istiqaməti əsasən şimaldan cənuba yönəlmişdir. Ərazinin çayları Baş Qafqaz silsiləsinin yüksək dağ zirvələrindən başlayan, bolsulu, selli çaylardır.

Böyük Qafqazın cənub yamacının ***bitki örtüyü*** iqlim, torpaq örtüyü müxtəlifliyindən və relyefdən asılı olaraq rənagarəngliyi ilə seçilir. Ərazidə bitki örtüyünün zənginliyinə təsir edən əsas amil dağ çaylarının ərazidə əmələ gətirdiyi rütubətlik rejimidir. Tədqiqat ərazisində hündürlük qurşaqlarına uyğun olaraq subalp, alp çəmənlikləri, enliyarpaqlı dağ meşələri, kolluqların yerində yenidən bərpa olunmuş bitkilər, dərə-çəmən, bozqır bitkiləri yayılmışdır. Meşələrində, əsasən palıd, vələs, qovaq və fıstıq ağacları üstünlük

təşkil edir. Ərazi həmçinin ***heyvanat aləminin*** zənginliyinə görə seçilir. Zaqatala və İlisu Dövlət Təbiət qoruqlarında endemik və relikt flora və fauna nümunələri qorunub saxlanılır. Ərazilərdə dağ keçisi, nəcib maral, cüyür və digər heyvanlar rekreasiya potensialına əhəmiyyətli dərəcədə təsir edir.

II fəsil "**Böyük Qafqazın cənub yamacının fiziki-coğrafi səciyyəsi və təbii ehtiyatlarının rekreasiya potensialı**"na həsr edilmişdir. Bu fəsildə ayrı-ayrı təbii komponentlərin rekreasiya potensialı dəyərləndirilmişdir.

***İqlim ehtiyatlarının insan sağlamlığına təsiri*** tədqiq edildikdə Ə.C.Əyyubov və Q.Ə.Hacıyevin tədqiqatlarına mütləq dərəcədə istinad edilməlidir. Onlar Azərbaycan ərazisini 5 iqlim-landşaft vilayətinə ayırmışlar[2]. Bu bölgüyə əsasən tədqiq olunan ərazi Böyük Qafqaz vilayətinə aid olub, düzənlik və dağətəyi hissəsində havanın orta illik temperaturu 13-14$^0$C, orta dağlıqda 5-10$^0$C təşkil edir. Subalp və alp qurşaqlarında isə havanın orta illik temperaturu 2$^0$C-dən aşağı düşmür. Ərazinin düzənlik və dağətəyi hissəsində havanın mütləq minimum temperaturu –21-25$^0$C, yüksək dağlıq zirvələrinə yaxın suayrıcına doğru ərazilərdə –45-50$^0$C qeydə alınmışdır. Atmosfer rütübətlənməsi şəraitinə görə 3 iri zona: quraq, yarımrütubətli və rütubətli olmaqla ayrılır. Quraq ərazilər (Md<0.25) əsasən, Şəki rayonu ərazisində dəniz səviyyəsindən 450-500 m, qərb və şərq hissələrdə isə 200-300 m-dən aşağı olan sahələrdir. İl ərzində burada 500 mm, iyul-avqust aylarında isə 65-100 mm-dən az yağıntı düşür. Yarımrütubətli zonanın sərhəddi Balakən və Zaqatala rayonları ərazisində 200 m, digər hissələrdə isə 550-650 m hündürlükdən keçir. 700-800 m-dən yüksəkdə yerləşən ərazilər isə artıq rütubətli zonaya aiddir. Əraziyə düşən Günəş radiyasiyasının miqdarı qərbdən şərqə və orta dağlıq hissədən düzənlik və yüksək dağlıq rayonlara doğru artır. Dağ ətəklərində Günəş radiyasiyasının kəmiyyəti 2200-2300 saat, yüksək dağlıq hissədə isə 2400-2500 saat arasında tərəddüd edir[3].

[2] Əyyubov, Ə.C. Azərbaycan SSR-nin iqlim ehtiyatları / Ə.C. Əyyubov, Q.Ə. Hacıyev – Bakı: Elm, − 1984. − 132 s.
[3] Azərbaycan Respublikasının coğrafiyası, Fiziki coğrafiya: [3 cilddə] / Red. hey. sədri R.M.Məmmədov. – Bakı: Avropa, − c. 1. – 2014. − 530 s.

İqlim ehtiyatlarının təhlili onu deməyə əsas verir ki, Böyük Qafqazın cənub yamacında iqlim və balneoiqlim kurortlarının yaradılması üçün perspektivli olan ərazilərə, əsasən, aşağı və orta dağlıq zonları aid etmək olar. İlin soyuq fəslində günəşli havaların kifayət qədər olması heliomüalicəni xüsusi eyvanlarda qış fəslində də davam etdirməyə imkan verir.

***Geoloji-tektonik quruluşun və oroqrafiyasının rekreasiya potensialı*** təhlili aparıldıqda müəyyən edilmişdir ki, ərazi zəngin rekreasiya potensialına malikdir. Bu potensial imkanlardan istifadə nəticəsində cəlbediciliyi və unikallığı ilə seçilən silsilələr və tirələrə haykinq və treykinq səfərlər təşkil etmək mümkündür. Belə ki, dağlıq ərazilərin rekreasiya potensialı öyrənildikdə ərazinin kəskin parçalanmış relyefini və intensiv eroziya, yuyulma, sürüşmə, uçqun, sel hadisələri kimi ekzodinamiki amillər, eləcə də yüksək seysmikliyi (8-9 bala qədər) nəzərə alınmışdır. Nəticə etibarilə Böyük Qafqazın cənub yamacının relyefinin morfometrik göstəriciləri ArcMap 10.8 proqram təminatında xəritələşdirilmiş və rekreasiya potensialı qiymətləndirilmişdir. Relyefin meyillik göstəricilərinə görə tədqiq olunan ərazinin 55,1%-i ($0\text{-}10^0$) rekreasiya potensialından istifadə üçün yararlı olub, infrastrukturun salınması, istirahət obyektlərinin tikintisi üçün əlverişli şəraitə malikdir. Ərazinin 6,7%-i meyilliyi $40^0$-dən yüksək ərazilər olub, yalnız ekstremal turizm növlərinin təşkili üçün əlverişlidir[4]. Dağlıq bölgələrdə relyefin üfüqi və şaquli parçalanma göstəriciləri daha yüksək olması rekreasiya potensialının öyrənilməsi və turizm infrastrukturlarının təşkili üçün müəyyən maneələr yaradır.

Tədqiqat ərazisinin relyefinin morfometrik göstəricilərinin yüksək olduğu yerlər turizmin inkişafı üçün mənfi şəraitə malik olsa da, burada relyefin parçalanmasının yaratdığı heyrətamiz mənzərə, landşaftların cəlbediciliyi bir çox turistlər üçün qısamüddətli istirahət və gəzintiləri (yaylaq turizmi) maraqlı edir. Eyni zamanda, yüksək və

---

[4] Мамедова, Г.Г. Влияние морфометрических показателей рельефа на рекреационный потенциал между Мазымчайем и Шинчайем // Известия Тульского Государственного Университета Науки о Земле и смежные экологические науки», – Тула: – 2023. №2, – s. 17-26.

sıldırım dağlar hazırda dünyada çox populyar olan və sürətlə inkişaf edən ekstremal turizmin müəyyən növlərinin (idman turizmi, dağ turizmi və s.) inkişafı üçün əlverişlidir.

Təbii-coğrafi şəraitinin rekreasiya potensialının qiymətləndirilməsi aparılan zaman kompleks yanaşmanın əsası kimi aparıcı rol oynayan ***landşaftların rekreasiya əhəmiyyəti və ərazi üstünlükləri*** mütləq şəkildə nəzərə alınmalıdır. Çünki landşaftların rekreasiya əhəmiyyətinin qiymətləndirilməsi: iqlim, relyef, bitki, su obyektləri, estetik zənginlik, nəqliyyat imkanları, təbii ərazi komplekslərinin antropogen transformasiya dərəcəsi və s. əsasında aparılır. Böyük Qafqazın cənub yamacının yüksək rekreasiya potensialına malik landşaftlarına dağ-meşə və düzənlik landşaftları aid edilir. Bu landşaft tipləri əsasən ilin bütün fəsillərində gəzinti, müalicə-sağlamlıq, treykinq və s. kimi turizm fəaliyyətləri üçün əlverişli hesab olunur. Quru çöl landşaftları, yarımsəhra və alçaq dağlığın yarımsəhra landşaftlarının əraziyə düşən hissələrində demək olar ki, turizm fəaliyyəti işi aparılmır və bu ərazilər turizm baxımından əlverişsiz hesab olunur.

***Hidroqrafik şəbəkənin rekreasiya potensialı*** qiymətləndirildikdə çaylar, şəlalələr, göllər, termal və mineral bulaqlar və s.-nin funksional asılılığının təhlili aparılmalıdır. Böyük Qafqazın cənub yamacının nisbətən sıx şaxələnmiş çay şəbəkəsinə malik olması ərazidə üfüqi parçalanmanın kəmiyyətinin yüksək olmasına səbəb olmuşdur. Ərazi daxilində olan çaylar (Mazımçay, Kişçay, Kürmükçay, Katexçay, Balakənçay, Talaçay, Şinçay və s.) çoxsaylı qolları ilə Kür hövzəsinə aiddir və çayların dağ tipinin bariz xüsusiyyətlərinə malikdir. Yuxarı axarlarda çaylar dar, kanyonvari vadilərlə axır, əhəmiyyətli yamaclara, yüksək axınlara malikdir və düzənliklərə daxil olduqda dərələrini genişləndirir. Bu çaylar tipik dağlıq xarakter daşıyır ki, bu da estetik baxımdan və ekskursiya fəaliyyəti üçün yararlıdır. Dağlar ərazilərdə çayların yüksək sürəti və dayaz dərinliyi ekstremal turizm və idman növlərinə imkan verir. Çayların üzərində Ramramay, Qum,Ləkit-Mamırlı, İlisu, Uludağ, Ballıbulaq, Qoçyataq, Şahəli (Şəli), Gözbulaq, Çaykeçən, Katex və s. şəlalələr turistlərin ən çox ziyarət etdikləri yerlərdən biri sayılır.

Tədqiqat ərazisində dünyaca məşhur suların analoqları olan termal və mineral bulaqların zənginliyi ilə də seçilir. Belə ki, Qaxda Oğlanbulaq, Qızbulaq, Qaynama, Kümrükbulaq, Zaqatalada Cimcimə və s. bulaqların debiti və mineral tərkibi (xlor, natrium, maqnezium, hidrogen sulfid və s.) bir çox xəstəliklərin müalicəsində önəmli rol oynayır, sağlamlıq turizminin inkişafı üçün olduqca əhəmiyyətlidir. Məsələn, yerli əhali tərəfindən "Hamam" adlandırılan termal bulağın tərkibi rodon-kükürd olub, sağlamlıq turizmində kustar üsulla istifadə edilir.

***Bitki örtüyü və heyvanlar aləminin rekreasiya potensialı*** kompleks şəkildə öyrənilməlidir. Çünki tədqiqat ərazisi daxilində hündürlük amplitudunun yüksək olması və antropogen yüklənmə dərəcəsinin fərqlilik təşkil etməsi burada bitki örtüyünün və heyvanat aləminin qeyri-bərabər yayılmasına səbəb olmuşdur. Ərazinin 2000-3200 m yüksəkliklərində yayılmış alp ("Alp xalıları") və subalp çəmənlikləri alçaqboylu otlardan ibarət olub, dağ gəzintilərini sevən turistlər üçün əvəzedilməz mənzərəyə malikdir. Subalp çəmənləri və çəmən çölləri meşə qurşağı ilə alp çəmənləri arasında geniş sahə tutur. Burada müxtəlif bitkilər: alp zəngiçiçəyi (Campanula alpestris), çobanyastığı, alp ətirşahı (Geranium alpestre), alp mahmızlaləsi (Corydalıs alpestris), Qafqaz dovşankələmi (Sedum villosum), alp qayaotu (Sempervivum alpestre), alp unutması (Myosotis alpestres) və s. geniş yayılmışdır. Subalp çəmənliklərində isə zəngiçiçəklilər, xaççiçəklilər, paxlalılar, gülçiçəklilər və s. fəsilələrdən olan bitkilər hündür və butaya bənzər ot örtüyü yaradır ki, bu da ərazinin estetik görüntüsünə müsbət təsir göstərir. Tədqiqat ərazisinin meşə massivi estetik, kurort və rekreasiya əhəmiyyətinə malikdir və bu da ilin isti dövrlərində, xüsusilə də yay aylarında turistlərin axın etməsinə səbəb olur.

Bitki örtüyü kimi ərazinin heyvanat aləmi də olduqca zəngindir. Fauna rekreasiya ehtiyatları dedikdə, heyvanlar aləminin bütün müxtəlifliyini özündə birləşdirən, elmi, elmi-idrak, təbii-estetik və tibbi-bioloji dəyərə malik olan, insanın mənəvi və fiziki gücünün, onun fəaliyyətinin bərpası prosesində istifadə olunan təbii sərvətlər başa düşülür. Rekreasiya fəaliyyəti üçün heyvanlar aləmi əsasən müəyyən ərazinin estetik fonu, həmçinin ovçuluğun inkişafı üçün

resurslar kimi dəyərləndirilir. Tədqiq olunan Böyük Qafqazın cənub yamacı qiymətli ov heyvanlarından: Qafqaz maralı, cüyür, bezoar keçisi, Qafqaz dağ keçisi, qaban, köpkər və s.; gəmiricilərdən: daşlıq dələsi, dovşan, sincab, porsuq; tirəndazlar, meşə süleysinləri, qulaqlı kirpini və s.-ni göstərmək olar.

III fəsil "**Böyük Qafqazın cənub yamacının turizm obyektləri, onların təsnifatı və xüsusiyyətləri**"nə həsr olunmuşdur. Bu fəsildə ilkin olaraq təbiət abidələrinin təsnifatı aparılmış, daha sonra geoloji-geomorfoloji abidələrin təbii-turizm cəlbediciliyi araşdırılmış, qoruq və yasaqlıqların təbii-turizm xüsusiyyətlərinin üstün cəhətləri açıqlanmışdır.

Təbii-coğrafi şəraitin rekreasiya resursları dedikdə, insanın mənəvi sağlamlığına xidmət edən təbiət abidələri, landşaftın bütövlüyünün ahəngini təşkil edən təbii komplekslər, birbaşa və dolayı yolla turistlərin istirahətinə təsir göstərən təbii ekosistem və onların tərkib hissələrinin məcmusu başa düşülür. Estetik dəyərə malik təbiət abidələri yayıldıqları yerlərə maraq doğuraraq insanların səyahətinə səbəb olur və beləliklə turizmin inkişafında həlledici rol oynayır. Təbiət abidələri dedikdə, əsasən geoloji, geomorfoloji, hidroloji, iqlim, flora və fauna nəzərdə tuturuq ki, tədqiq etdiyimiz ərazisi də bu baxımdan xeyli zəngindir. Tədqiq olunan ərazinin turizm-rekreasiya əhəmiyyətli təbiət abidələri kompleksində müxtəlif mənşəli (endogen, ekzogen, antropogen) və estetik baxımdan daha çox maraq doğuran, ekoturizmin inkişafında böyük potensial imkanlara malik geoloji, geoloji-geomorfoloji, hidroloji, hidrogeoloji abidələr mühüm yer tutur. Burada həmin abidələr göllər, şəlalələr, mineral bulaqlar, antesedent və kanyonvari çay dərələri, karst mağaraları, müxtəlif ekzogen proseslər (eol, eroziya, abraziya və s.) nəticəsində əmələ gəlmiş ekzotik qayalar, təbiət mənzərələri və s. ilə təmsil olunmuşdur (cədvəl 1).

Geoloji-geomorfoloji abidələrin təbii-turizm cəlbediciliyi öyrənildikdə ilk öncə ərazi oraqrafik cəhətdən tədqiq edilir. Tədqiqat ərazisi daxilində Baş silsilədən ayrılan dağ qolları cənub, cənub-qərbə doğru uzanır və Dinqilov, Roçigel, Xalagel, Axkamal, Qas və b. dağ qollarının Baş suayrıcı sisiləsi yaxınlığında sıldırımlılığının

yüksəlməsi baş verir ki, bu da dağların iti uclu qayalıq zirvələrlə xarakterizə olunmasıdır.

Cədvəl 1

Böyük Qafqazın cənub yamacının (Mazım-Şin çayları arası) təbii rekreasiya ehtiyatları

| Təbiət abidələrinin növləri | Təbiət abidələri |
|---|---|
| Geomorfoloji | Zaqatala-Qovdağ sinklinoriumu, Qanıx-Əyriçay sinklinoriumu, Vəndam antiklinoriumu, Salavat aşırımı, Malarasa aşırımı, Qaflan silsiləsi, Qaraquzey silsiləsi, Qubax silsiləsi, Qaraqaya zirvəsi, Şirək yaylası, Masqarex dağı, antiklinal strukturlar, sütunvari ayrılmalar, litoskulptur abidələr, Piçigel mağarası və s. |
| Hidroloji | Xalaxi gölü, Murana gölü, Qoçyatağı (Nohur) gölü, Çənəxur gölü, Şahəli kaskad şəlaləsi, Şahverdi şəlaləsi, Vəziçal şəlaləsi, Qum şəlaləsi, Qaraçay şəlaləsi, Qoçyataq (Suqovuşan) şəlaləsi, İlisu (Ramamay) şəlaləsi, Katex şəlaləsi, Ləkit (Mamırlı) şəlaləsi, Mazımçay, Katexçay, Şinçay, Balakənçay, Talaçay, Qaraçay (Muxaxçay), Kürmükçay, Əyriçay, Hamamçay və s. |
| Hidrogeoloji | Qurmux, Qaynama, İlisu, Oğlanbulaq, Qızbulaq, Qax, Cimcimə, Moxbulaq, Kümrükbulaq və s. mineral-termal bulaqlar |
| Xüsusi qorunan təbiət əraziləri | Zaqatala Dövlət Təbiət Qoruğu, İlisu Dövlət Təbiət Qoruğu, Zaqatala Dövlət Təbiət Yasaqlığı, Qax Dövlət Təbiət Yasaqlığı |

Dağ turizm həvəskarları üçün əvəzolunmaz şəraitə malik olan Böyük Qafqazın cənub yamacında geoloji təbiət abidələrindən ən cazibədar olanı litoskulptur abidələridir. Bu abidələr karbonatlı süxurların geniş yayılması səbəbindən ana süxurların və kontinental çöküntülərin aşınması və denudasiyası nəticəsində yaranır. Litoskulptur relyef forması olan karst mağaraları turistlərin diqqətini cəlb edən ən gözəl təbiət abidəsi nümunəsidir. Bu baxımdan, Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisində yerləşən Kilsəçayın axarı boyunca, çox böyük sahəyə malik Piçigel mağarası olduqca maraqlıdır.

Böyük Qafqazın cənub yamacının hidroloji təbiət abidələrindən birini təmsil edən çoxlu sayda şəlalələr mövcuddur. Şəlalələr təbiətin

yaratdığı möcüzələrdən biri hesab olunur, öz unikallığı və heyranedici mənzərəsi ilə diqqəti cəlb edir. Dağlıq ərazilərdə tez-tez baş verən sel hadisələri nəticəsində, həmçinin intensiv aşınma prosesləri və denudasiyon proseslərin üstünlük təşkil etməsi çaylarda astana və şəlalələrin əmələ gəlməsinə şərait yaratmışdır.

Hidroloji abidələrin ən maraqlı və diqqətəlayiq obyektləri sırasında göl mənşəli təbiət abidələri mühüm əhəmiyyət kəsb edir. Zaqatalada Xalaxi, Qaxda Qoçyataq, Murana gölləri turistlər arasında daha məşhur olub, onların ətraflarında istirahət-əyləncə mərkəzləri yaradılmışdır. Lakin bu mərkəzlərin fəaliyyəti hər zaman özünü doğrultmur, xidmət və qiymət siyasəti arasında olan fərqlilik daim narazıçılığa səbəb olur.

Hidroloji abidələr kimi hidrogeoloji abidələr də böyük cəlbedicilik və iqtisadi üstünlüklərə malikdirlər. Böyük Qafqazın cənub yamacında bir çox xəstəliklərə təbii yolla şəfa gətirən termal və mineral bulaqlar (Qurmux, Qaynama, İlisu, Oğlanbulaq, Qızbulaq, Qax, Cimcimə, Moxbulaq, Kürmükbulaq və s.), istirahət zonaları vardır. Bu baxımdan, Qax rayonu digər təbii üstünlükləri ilə yanaşı, özünün böyük müalicəvi əhəmiyyəti olan termal və mineral bulaqlarının çoxluğu ilə seçilir. Əsasən rayonun dağəmələgəlmə proseslərinin davam etdiyi yüksək dağlıq ərazilərində termal bulaqlar daha çox yayılmışdır. Burada 5 termal və 6 mineral soyuq bulaq var. Termal və mineral suların kimyəvi tərkibi, debiti, temperaturu, müalicəvi xüsusiyyətləri və s. göstəriciləri nəinki elmi-praktiki əhəmiyyətilə, həmçinin rekreasiya potensialı ilə seçilir[5].

Apardığımız tədqiqatın nəticəsində belə qənaətə gəlmək olar ki, tədqiqat ərazisinin termal və mineral suları sayına, debitinə, çoxsaylı xəstəliklərin müalicə imkanlarına və balneoloji əhəmiyyətinə görə dünyanın ən məşhur İjovski, Mineqorks, Medji, Uqum, Matesta, Talqı, Saaki, Parnaus və s. sularının analoqları olub, indiyə qədər onlardan səmərəli istifadə edilmir.

---

[5] Məmmədova, G.Q. Qax rayonunun ekoturizm potensialı // − Naxçıvan Dövlət Universiteti, Elmi Xəbərlər, Naxçıvan: − 2022. № 7 (120), − s. 108-114

Qoruq və yasaqlıqların təbii-turizm xüsusiyyətləri dedikdə, təbiətin mühafizəsi ilə bağlı bir sıra tədbirlərin görülməsi başa düşülür. Bu tədbirlərdən biri də nəsli kəsilməkdə olan və sayları kəskin şəkildə azalmış fauna və flora növlərini qorumaq üçün qoruq və yasaqlıqların, milli parkların yaradılmasıdır. Tədqiqat ərazisində iki dövlət təbiət qoruğu (Zaqatala, İlisu) və iki yasaqlıq (Zaqatala, Qax) var. Qoruqlar təbii-turizm fəaliyyətinin həyata keçirilməsinin qadağan olunmuş ərazisi olsa da, antropogen təsirlərdən kənarda qaldığından olduqca yüksək rekreasiya potensialına malikdir.

Qoruqlar və onların bufer zonaları fauna və flora aləminin zənginliyi ilə seçilir. Bu ərazilərdə turizm fəaliyyəti məhdud olsa da, bufer zonalarda qismən də olsa bu fəaliyyətə icazə verilir. Əsasən ekoturizmin inkişaf etdirildiyi bufer zonalarda itburnu, ağ pıtraq, kəklikotu, oymadərən, dəvədabanı, qaragilə, xanımotu, bağayarpağı, gəndalaş, üsküotu, murdarça və s. dərman bitkiləri xalq təbabətində geniş istifadə olunur. Bu da təbii mühitinin rekreasiya potensialını inkişafına səbəb olur. Hazırda öz toxunulmazlığını qoruyub saxlayaq qoruqlarda çoxlu sayda məməli, quş növləri, sürürnənlər məskunlaşmışdır. Onlarda bordvoçinq (quş müşahidəsi) kimi turizm növünün inkişaf etdirilməsinə səbəb ola bilər.

Yasaqlıqlar ətraf mühitin ekoloji vəziyyətini və təbiət komplekslərini qorumaq məqsədilə yaradılmış mühafizə obyektləridir. Qoruqlar kimi yasaqlıqlarda da hər hansı bir təbiət kompleksinə və ya onun ayrı-ayrı komponentlərinə zərər vuracaq davranışlar və ya fəaliyyətlər qadağandır. Təbii ki, istirahətə gələn insanlar və ya turistlər müəyyən qaydalara əməl edərək ətraf mühitlə ehtiyatlı davranmalıdır. Yasaqlıqlarda qisməndə olsa ovçuluq, balıq ovu, mal-qara otarılması, əkin sahələrinin şumlanması, meyvə və giləmeyvələrin yığılmasına icazə verilə bilər. Zaqatala və Qax Dövlət Təbiət yasaqlıqlarında bu tip fəaliyyətin həyata keçirilməsi ilə ətraf mühitin mühafizəsi və turizm fəaliyyətinin təşkili işində müsbət nəticə əldə etmək mümkündür.

IV fəsil "**Böyük Qafqazın cənub yamacının rekreasiya potensialının qiymətləndirilməsi**"nə həsr edilmişdir. Rekreasiya potensialının qiymətləndirilməsi müəyyən bir təbii-ərazi kompleksinə əsaslanaraq həyata keçirilir. Bu zaman, rekreasiya ehtiyacları ilə

xarakterizə olunan əsas tələblər müəyyən edilir. Rekreasiya potensialının qiymətləndirildikdə ərazinin inkişafına təsir edən əsas amillərin kompleks şəkildə öyrənilir. Yalnız bu halda rekreasiya potensialını qiymətləndirməyə, ərazinin inkişaf vektorlarının və sosial-iqtisadi məqsədlərinin optimallaşdırılmasına nail olmaq mümkündür.

Ərazilərin rekreasiya məqsədləri üçün iqtisadi istifadəsi yüksək spesifikliyi ilə xarakterizə olunur: müxtəlif ərazilərdə təbii və antropogen mühitin eyni komponentləri rekreasiya prosesinin təşkilində fərqli rol oynaya bilər. Rekreasiya resurslarının xüsusiyyətləri bunlardır:

- ərazi: istirahət konkret ərazi daxilində rekreasiya potensialı ilə bağlıdır;
- unikallıq: ətrafdakı ərazilərdən öz xüsusiyyətlərinə və əhəmiyyətlilik dərəcəsinə görə seçilən, müəyyən istirahət fəaliyyətini özündə əks etdirir.

Rekreasiya potensialının ən vacib elementlərindən biri insanların bioloji (yəni, insanların fiziki sağlamlığına təsir edən) ehtiyacların ödənilməsidir. Bu da iki yolla həyata keçirilə bilər: birinci insan istirahətdə olduqda, ikincisi fəaliyyət növünü dəyişdirdikdə. Bu da insanların mənəvi zənginliyi, fəaliyyətlərinin genişləndirilməsi, yeni bilik və bacarıqların əldə edilməsi kimi imkanlar yaradır. Rekreasiya məqsədli ərazilərdə insanların həyat tərzini genişmiqyaslı, hətta qısamüddətli dəyişiklik, onların hərəkəti və istirahət zonalarında qalması kortəbii şəkildə həyata keçirilə bilməz. Bunun üçün əsas amillərdən biri kənd turizminin və ekoturizmin inkişaf etdirilməsidir.

Müasir dövrümüzdə kənd turizmi və ekoturizm perspektli sahə olub, tədqiqat ərazimiz üçün böyük potensiala malikdir. Dağlıq bölgələrində turizm-rekreasiya potensialına malik olan bir sıra kəndlər (Yuxarı Çardaxlar, Mahamalar, Talalar, Baş Şabalıd, Qum, Ləkit, Car, Katex, Sarıbaş və s.) vardır ki, onların da diaqnostik təhlili aparılması və istifadə yolları müəyyən edilməlidir (şəkil 1). Kənd turizmi və ekoturizm fəaliyyəti rekreasiya potensialından asılı olub, təbii və antropogen ehtiyatlar nəticəsində yaradılmış, rekreasiya xüsusiyyətlərinə və onlardan rekreasiya məqsədilə istifadə imkanlarına malik olan obyektlərdən ibarətdir. Rekreasiya potensialı




Şəkil 1. Böyük Qafqazın cənub yamacının kənd turizmi və ekoturizm potensialı olan kəndlər (Mazım-Şin çayları arası)

bu zaman bir qayda olaraq, rekreasiya zonası və rekreasiya fəaliyyəti ilə bağlı mövcud təbii və sosial-mədəni obyektlərə aid edilir.

Təbii-coğrafi şəraitin rekreasiya potensialı qiymətləndirilərkən: ərazinin relyefi, iqlim şəraiti, hidroqrafik şəbəkəsi, landşaftları, torpaq-bitki örtüyü və heyvanlar aləmi nəzərə alınmışdır.

Relyefi təbii rekreasiya amili kimi qiymətləndirilərkən əsasən onun morfometrik xüsusiyyətləri: üfüqi və şaquli parçalanma dərəcəsi, yamacların meyilliyi, relyefin eroziyaya məruz qalmasının sıxlığı, nisbi hündürlüklərin amplitudası, relyefin morfoloji xüsusiyyətləri (çay dərələrinin forması, yamacların uzununa profili, sahilin forması və s.) və s. nəzərə alınır.

Tədqiqat aparılan ərazidə təbiət abidələri müxtəlif mənşəli, nadir estetik və ekzotik mənzərələri ilə diqqəti cəlb etməklə böyük turizm əhəmiyyətinə görə xüsusi maraq doğurur. Bu baxımdan, tədqiq olunan ərazi ölkənin digər bölgələri ilə müqayisədə daha böyük təbii-turizm potensialına malikdir. Mürəkkəb geoloji-geomorfoloji və tektonik quruluşu ilə seçilən təbii resurslar əhəmiyyətini, müxtəlifliyinə və zənginliyinə görə turistlərin diqqətini və marağını cəlb edir.

Ərazinin iqlim şəraitinin qiymətləndirilməsi aparıldıqda tədqiqat ərazisinə il boyu düşən günəşli günlərin miqdarı (2200-2300 saat) əsas rol oynayır. Çünki günəşli günlərin miqdarının çox olması turizm mövsümünün daha uzunmüddətli olmasına əlverişli şərait yaradır. Nəzərə alsaq ki, respublikamızda turizm əsas etibarilə yay aylarında inkişaf etmişdir, deməli ilin isti mövsümi vacib faktor kimi nəzərdən keçirilməlidir. Tədqiqat ərazisinin iqlimi əsasən mülayim rütubətli olub, çox yağıntılıdır (Lənkəran bölgəsindən sonra), burada küləyin zəif olması rekreasiya potensialını bir qədər də artırır.

İqlim amili kimi hidroqrafik şəbəkənin qiymətləndirilməsi də vacib faktorlardan biridir. Çaylarda qayıqla gəzinti, ovçuluq, balıqçılıq, üzgüçülük kimi bir çox turizm fəaliyyətini özündə birləşdirən rekreasiya mənbəyi kimi insanların istirahətinin təşkili üçün olduqca əhəmiyyətlidir. Böyük Qafqazın cənub yamacının tədqiq olunan ərazisi su ehtiyatı ilə olduqca zəngin olub, turizm potensialını artırır. Katex, Şin, Kürmükçay və s. kimi çaylar respublikamızın bolsulu çaylarıdır. Bu dağ çaylarından ekstremal və idman turizmində geniş istifadə etmək olar. Lakin bir sıra texniki

avadanlıqların və mütəxəssis çatışmazlığından bu sahəyə maraq olduqca zəifdir. Təbii ehtiyatların turizm rekreasiya potensialına təsir edən başlıca amillərdən biri də turizmin inkişafında mühüm rol oynayan termal və mineral bulaqlardır. Ərazidə olan Cimcimə, Oğlanbulaq, Qızbulaq, Hamambulaq, Qax və s. termal və mineral bulaqlar bir sıra xəstəliklərin – ürək-damar, əzələ, oynaq, əsəb, dəri və s. xəstəliklərin müalicəsində əvəzolunmazdır.

Təbii-coğrafi şəraitin qiymətləndirilməsi aparıldıqda əsas meyarlardan biri kimi landşaft komponentlərinin əlverişlilik dərəcəsi və estetikliyi götürülür. Landşaftların rekreasiya potensialı qiymətləndirilərkən onların estetikliyi ilə yanaşı, turizm cəlbediciliyi də əsas rol oynayır. Çünki landşaftlar turizmin davamlı inkişafında əsas faktorlardan biridir.

Tədqiqat ərazisi daxilində landşaftlarla yanaşı, xüsusi mühafizə olunan təbiət əraziləri də turizmin, əsasən ekoturizmin inkişafı üçün ən vacib resurs bazadır. Çünki belə ərazilər ən mənzərəli və cəlbedici yerlər hesab olunur. Həmçinin turist qruplarının qəbulu və onlara xidmət göstərilməsi üçün artıq müəyyən edilmiş bir sistemə, xidmət infrastrukturuna, nəqliyyat və yerli turizm marşrutlarına malikdir.

Ərazilərin rekreasiya potensialının qiymətləndirilməsinin nəticəsi adətən müxtəlif regional rayonlaşdırılma sxemlərinin tərtib edilməsidir. Bir qayda olaraq, yerli və xarici tədqiqat işlərində rekreasiya rayonlaşdırılmasının iki əsas istiqaməti var. Birincisi, rekreasiya zonalarının ayrılmasına əsaslanır ki, burada əsas obyekt istirahət, xidmət infrastrukturu, turizm marşrutları və s. xüsusiyyətlər nəzərə alınır. Bu yanaşma ənənəvi olaraq iqtisadi-coğrafi rayonlaşdırılmada qəbul edilir. Digər halda isə rekreasiya ərazisi xüsusi rekreasiya zonasının elementi kimi qəbul edilir, yəni bu, rekreasiya məqsədli istifadə baxımından az-çox eynicinsli olan ərazidir.

Yuxarıda qeyd olunan qiymətləndirmə meyarları və uzunmüddətli araşdırmalar nəticəsində Böyük Qafqazın cənub yamacının (Mazım-Şin çayları arası) təbii-turizm potensialına görə rayonlaşdırılmasının xəritəsi hazırlanmışdır. ArcMap 10.8 proqram təminatında nöqtələrin (təbiət abidələri) sıxlığına əsasən tədqiqat ərazisinin təbii-turizm potensialı rayonlaşdırılması əsasında ərazinin qiymətləndirilməsi aparılmışdır (şəkil 2).




Şəkil 2. Böyük Qafqazın cənub yamacının (Mazım-Şin çayları arası) təbii-turizm potensialının rayonlaşdırılması

Tədqiq olunan ərazinin təbii-coğrafi şəraitinin turizm potensialı qiymətləndirilərkən 5 rayon ayrılmışdır: zəif təbii-turizm potensiallı; orta təbii-turizm potensiallı; yüksək, lakin zəif istifadə olunan; yüksək, cəlbedici ərazilər; yüksək, istifadəsi realizə olunan ərazilər. Bu dərəcələr daxilində hər bir rayonun təbii-turizm potensialına təsir edən təbii amillər araşdırılmışdır.

1. Zəif təbii-turizm potensialına malik olan ərazilər tədqiqat ərazisinin 6%-ni (223 km2) əhatə edir. Ərazinin təbii şəraiti turizm üçün əlverişli olmasa da, bəzi ərazilərində bulaqlar mövcuddur. Relyefin morfometrik göstəriciləri turizm obyektlərinin salınması üçün əlverişli olsa da bu ərazilərdə bitki-örtüyü zəifdir və əsasən quru-çöl, yarımsəhra landşaftları üstünlük təşkil edir. Bu səbəbdən, ərazinin rekreasiya potensialı olduqca zəifdir, lakin bəzi yerlərdə çay kənarlarında gəzinti turizm fəaliyyəti ilə məşğul olmaq mümkündür.

2. Orta dərəcədə təbii-turizm potensialına malik olan ərazilər ümumi ərazinin 57%-ni (2055 $km^2$) əhatə edir (cədvəl 2). Relyefin morfometrik göstəriciləri infrastrukturun salınması üçün əlverişli olduğundan, burada turizm obyektlərinin (mehmanxana və istirahət obyektlərinin) yerləşdirilməsi mümkündür. Həmçinin meşələr və çay kənarlarında turistlərin istirahəti üçün əlverişli şərait vardır. Əsasən yay aylarında turistlər buraya gəzinti məqsədilə səfər edirlər. Müxtəlif yerlərində şəlalələr, termal və mineral bulaqlar, çay vadilərinin mövcudluğu turistlərin istirahəti üçün əlverişlidir. Burada həmçinin ovçuluq və kamp qurmaq üçün sahələr mövcuddur. Dağlıq ərazilərində isə sıldırımlı qayalar, yüksək parçalanmış relyef ekstremal turizm sevənlər üçün əvəzolunmaz məkanlardır.

3. Təbii-turizm potensialı yüksək olan, lakin zəif istifadə olunan ərazilər tədqiqat ərazisinin 18%-ni (646 $km^2$) əhatə edir. Ərazi daxilində mineral bulaqlar, zəngin bitki örtüyü, meşələrin, mənzərəli relyefin, çayların olması turistləri cəlb edir. Burada kempinq, haykinq, treykinq səfərlərinin təşkili üçün əlverişli yerlər mövcud olsa da ərazidə turizm potensialından zəif istifadə olunur. Ərazidə mövcud olan çoxsaylı termal və mineral bulaqlar var, iqlimin əlverişliliyi müalicə-sağlamlıq turizmi üçün əvəzolunmaz bir potensialdır.

4. Təbii-turizm potensialı yüksək olan, cəlbedici ərazilər tədqiqat ərazisinin 17%-ni (618 $km^2$) əhatə edir. Burada hidroloji, geomorfoloji

Cədvəl 2.

Böyük Qafqazın cənub yamacının (Mazım-Şin çayları arası) təbii-turizm potensialı göstəricilərinin qiymətləndirilməsi

| Təbii-turizm potensialı (balla) | Rayonlaşdırılma | Rekreasiya potensialına təsir edən amillər | Təbii turizm fəaliyyəti növləri | Sahə ($km^2$-lə) | Sahə (%-lə) |
|---|---|---|---|---|---|
| 1 | Zəif təbii-turizm potensialına malik olan ərazilər | Zəif bitki örtüyü, çay vadiləri, mineral bulaqlar | Gəzinti | 223 | 6 |
| 2 | Orta dərəcədə zəif təbii-turizm potensialına malik olan ərazilər | Sıldırımlı qayalar, parçalanmış relyef, alp-subalp çəmənlikləri, mineral-bulaqlar, çaylar, şəlalələr | Ekstremal turizm, alpinizm, haykinq, gəzinti, müalicə-sağlamlıq, kamp | 2055 | 57 |
| 3 | Təbii-turizm potensialı yüksək olan, lakin zəif istifadə olunan ərazilər | Çay vadiləri, mineral bulaqlar, meşələr | Əsasən gəzinti (çay vadilərində) turizmi, kamp, ovçuluq,müalicə-sağlamlıq, haykinq | 646 | 18 |
| 4 | Təbii-turizm potensialı yüksək olan, cəlbedici ərazilər | Kənd turizmi (Katex, Mazıx, Sarıbaş və s.) ilə seçilən ərazilər, Zaqatala və İlisu Dövlət Təbiət Qoruqları, çaylar, mineral bulaqlar, şəlalələr | Gəzinti, müalicə-sağlamlıq, ekstremal turizm, alpinizm, haykinq, treykinq səfərlər, su idman turizmi, kamp, | 618 | 17 |
| 5 | Təbii-turizm potensialı yüksək olan və istifadəsi realizə olunan ərazilər | Kənd turizmi (Qum, İlisu kəndləri, Qax İnqiloid), mineral bulaqlar, şəlalələr, zəngin meşə örtüyü, çaylar | Müalicə-sağlamlıq, gəzinti, treykinq, kamp, ekoturizm səfərləri | 75 | 2 |

təbiət abidələri, həmçinin, zəngin heyvanat və bitki aləminə sahib olan meşələr mövcuddur. Relyefin kəskin parçalanması, morfometrik göstəricilərin yüksək olması ilə yaranan mənzərələr, aşırımlar ərazinin təbii-turizm potensialını artırır. Təbii-turizm potensialı yüksək olan bu ərazilərin bir hissəsində dövlət təbiət qoruqlarının yerləşməsi əraziyə turist axınına mane olur. Yüksək dağlıq ərazilərində ekstremal turizm növü olan alpinizmin inkişafı üçün əlverişli şərait qayalıqlar, sıldırımlı yamaclar mövcuddur.Həmçinin ərazi üçün gəzinti, müalicə-sağlamlıq, su-idman turizmi də səciyyəvidir. Həmçinin bu ərazilər respublikada kənd turizm potensialına görə də seçilir. Katex, Mazıx, Sarıbaş və s. kimi kəndlər turistlərin sevimli məkanlarıdır.

5. Təbii-turizm potensialı yüksək olan və istifadəsi realizə olunan ərazilər tədqiqat ərazisinin 2%-ni (75 $km^2$) əhatə edir. Bu ərazilər ümumi respublika üzrə kənd turizminin inkişafı ilə seçilən ərazilər olub, əsasən Qum, Qax İnqiloid, İlisu kəndlərini və ətraf əraziləri əhatə edirlər. Təbii turizmin ən çox inkişaf etdiyi bu ərazilər yerli və xarici turist sayına görə də seçilir. Həmçinin ərazidən Kürmükçay, Hamamçay, Qum çaylarının keçməsi, unikal relyef formaları, nadir flora və fauna növlərinə malik meşələrinin olması, eləcə də mineral bulaqlarla zənginliyi turistləri əraziyə cəlb edir. Çox sayda turisti cəlb edən bu ərazi yüksək rekreasiya potensialına malik olub, təbiətsevərlər tərəfindən təşkil olunan ekoturizm səfərləri üçün olduqca əlverişli şəraitə malikdir. Bura həmçinin təbii turizm fəaliyyətlərindən müalicə-sağlamlıq turizmi, gəzinti, haykinq, trekinq səfərlər üçün uyğundur.

## NƏTİCƏ

1. İlk dəfə olaraq, Böyük Qafqazın cənub yamacının (Mazım-Şin çayları arası timsalında) təbii-coğrafi şəraitinin müasir vəziyyəti tədqiq edilərək ərazi daxilində təbii-rekreasiya ehtiyatlarının qeyri-bərabər paylandığı və rekreasiya potensialının turizm məqsədli istifadəsinin meyillik ($0\text{-}10^0$ yamaclar - 55,1%), ekspozisiyalı yamaclar (şimal və qərb ekspozisiyalı yamaclar - 25%), şaquli parçalanma (0-100 $m/km^2$ - 33,0%) və üfüqi parçalanma (1.5-2 $km/km^2$ - 29,0%) baxımından əlverişli olduğu ərazilər və onların

sahələri hesablanaraq müəyyən edilmişdir ki, ərazinin cəmi 35,5%-nin rekreasiya potensialı yüksəkdir.

2. Mazım-Şin çayları arası ərazi landşaflarının rekreasiya potensialı hər bir landşaft tipi daxilində öyrənilmiş və təyin edilmişdir ki, dağ-meşə landşaftları çox əlverişli; ön dağlığın kserofit və çöl landşaftları əlverişli; nival-subnival və dağ-çəmən landşaftları qismən əlverişli; quru çöl və yarımsəhra landşaftlarının isə turizm-rekreasiya potensialı əlverişsizdir. Dağ-meşə landşaftlarında əsasən müalicə-sağlamlıq, nival-subnival və dağ-çəmən landşaftlarında ekstremal (idman) və gəzinti (treykinq), ön dağlığın kserofit və çöl landşaftlarında ovçuluq, quru çöl və yarımsəhra landşaftlarında gəzinti turizm növlərini inkişaf etdirmək üçün potensial imkanlar genişdir.

3. İlk dəfə olaraq, Mazım-Şin çayları arası ərazisinin təbii-rekreasiya obyektlərinin diaqnostik təhlili aparılmış və kosmik şəkillərin ArcMap 10.8 proqram təminatı əsasında (1:200000 miqyaslı) vizual deşifrələnməsi işi həyata keçirilmiş, nəticədə daha cəlbedici ekoturizm, müalicə-sağlamlıq, treykinq, haykinq, idman və mağara (speleoturizm) turizm marşrutları elmi əsaslarla təsnifatlaşdırılmışdır. Hər bir turizm marşrutu ərazinin turizm-rekreasiya potensialını əyani şəkildə müəyyən etməyə, eləcə də kənd turizm imkanlarını artırmağa köməklik edir.

4. Mazım-Şin çayları arası ərazinin morfometrik xüsusiyyətləri, iqlim şəraiti, hidroqrafik şəbəkəsi və landşaftlarının təbii-turizm potensialı 5 ballıq qiymətləndirilmə meyarları əsasında aparılmışdır. Bunlara: zəif (ümumi ərazinin 6,0%-i) demək olar ki, istifadə edilməyən və ya istifadəsi mümkün olmayan çay vadiləri və mineral bulaqlar; orta (57,0%) əsasən sıldırımlı qayalar, yüksək parçalanmış relyef formaları, alp-subalp çəmənlikləri; yüksək potensialı olan, lakin zəif istifadə olunan (18,0%) çay vadiləri, mineral bulaqlar; yüksək potensialı olan cəlbedici ərazilər (17,0%) zəngin bitki örtüyü, çaylar, şəlalələr; yüksək potensialı olan və istifadəsi realizə olunan (2,0%) zəngin meşə örtüyü, çay vadiləri, şəlalələr, mineral bulaqlar və s. aid edilir.

5. Mazımçay və Şinçay çayları arası ərazinin təbii-coğrafi şəraiti və turizm-rekreasiya ehtiyatları kompleks şəkildə öyrənilməklə, iki istiqamətli: rekreasiya zonaları və rekreasiya məqsədli istifadə

imkanları qruplaşdırılaraq rekreasiya potensialının rayonlaşdırılması aparılmışdır. Təqdim olunan rayonlaşdırılma əsasında ekoturizm, müalicə-sağlamlıq, idman və gəzinti kimi turizm növlərinin konkret olaraq gələcək inkişaf perspektivlərinin əraziləri təyin edilmişdir.

## Təklif

Böyük Qafqazın cənub yamacının tədqiqat ərazisinə düşən hissəsində yerləşən təbiət abidələrinin tam şəkildə turizm-rekreasiya məqsədilə istifadə edilmədiyini nəzərə alaraq, onların mənimsənilməsi regionun sosial-iqtisadi inkişafına müsbət təsir edə bilər. Əsasən Balakən, Zaqatala, Qax və qismən Şəki rayonlarının tədqiqat ərazisinə düşən, dağlıq ərazilərində yerləşən və ekoturizm potensialı ilə seçilən kəndlərinin iqtisadi potensialından tam istifadə edilməsi regional turizmin inkişafında istifadəsi vacibdir.

Tədqiq olunan ərazinin, xüsusilə Qax rayonunda yerləşən İlisu kəndinin əlverişli iqlim şəraiti, həmçinin termal və mineral bulaqlarla zənginliyi, avtomobil yolunun rahat olması kimi müsbət cəhətləri gələcəkdə burada beynəlxalq əhəmiyyətli dağ-turizm və sağlamlıq-müalicə komplekslərinin yaradılması üçün potesial imkanlara malikdir. Bu imkanlardan tam və kompleks şəkildə istifadə yerli əhalinin işsizlik probleminin həllinə müsbət təsir göstərə bilər.

Tədqiqat regionunda termal və mineral bulaqların suyunun debiti hesablanmaqla, onlardan səmərəli istifadə yolları ilə bağlı tədbirlər planı hazırlanmalı, eləcə də hidrotexniki işlərin düzgün aparılması regional sağlamlıq-müalicə turizminə tövhə verər. Bu kimi tədbirlər sisteminin həyata keçirilməsi turistlərin sayının artmasında və ərazinin sosial-iqtisadi inkişafında mühüm rol oynayar.

**Dissertasiyanın mövzusuna uyğun aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. Məmmədova, G.Q. Turizm sahəsində dövlət siyasəti // "Azərbaycanda və Rusiyada İnsan Coğrafiyası: XXI əsrdə inkişafının əsas yolları" İctimai-coğrafiyaçılarının beynəlxalq (Azərbaycan-Rusiya) elmi konfransının materialları, − Bakı: − 2019, − s. 68-72

2. Məmmədova, G.Q. Böyük Qafqazın cənub yamacının tarixi-memarlıq abidəsi (Mazım – Şin çayları arası) // Aqrar təsərrüfatlar inkişafının yeni istiqamətləri və ətraf mühitin mühafizəsi, Respublika elmi konfransı, − Bakı: − 2021, − s.781-784

**3.** Məmmədova, G.Q. Böyük Qafqazın cənub yamacının turizm-istirahət potensialı (Mazım-Şin çayları arası) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98- ci ildönümünə həsr olunmuş "Azərbaycanda xalq, dövlət və ordu birliyinin gücü" adlı Respublika elmi konfransının materialları, − Lənkəran: − 2021, − s. 61-63

4. Məmmədova, G.Q. Böyük Qafqazın Cənub yamacının ekoturizm zonası üzrə imkanlar və problemlər // Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda multidissiplinar Respublika elmi-praktik konfransı, − Bakı: − 2021, − s. 56-60

5. Məmmədova, G.Q. Böyük Qafqazın cənub yamacının turizm-rekreasiya əhəmiyyətli təbiət abidələri (Mazım-Şin çayları arası) // "Çağdaş dönəmdə türk dünyasının aktual problemləri" Respublika elmi konfransının materialları, − Lənkəran: − 2021, − s. 83-84

6. Мамедова, Г.Г. Влияние экотуризма на социальное развитие сельских территорий (южный склон большого Кавказа между реками Мазымчай - Шинчай) // Главное управление Учреждение образования "Белорусская Государственная Сельскохозяйственная Академия" Актуальные проблемы в землеустройстве и пути их решения: сборник научных статей по материалам заочной Международной научно-практической конференции, посвященной 180-летию образования УО БГСХА, – Горки: − 2021, − с. 41-46

7. Məmmədova, G.Q. Böyük Qafqazın cənub yamacında yerləşən inzibati rayonların rekreasiya-turizm ehtiyatları və bu ehtiyatlardan səmərəli istifadənin perspektivləri (Mazım-Şin çayları arası) // Bakı Universitetinin xəbərləri, Təbiət elmləri seriyası, − Bakı: − 2022. №1, − s. 115-121

8. Məmmədova, G.Q. Qax rayonunun ekoturizm potensialı // − Naxçıvan Dövlət Universiteti, Elmi Xəbərlər, Naxçıvan: − 2022. № 7 (120), − s. 108-114

9. Мамедова, Г.Г. Роль термальных и минеральных источников южного склона Большого Кавказа в развитии экотуризма (в переделах Азербайджанские Республики, междуречье Мазымчай и Шинчая) // Modern problems of geography: integration of science and education, international scientific-practical conference, − Bakı: 2022, − s. 186-192.

10. Мамедова, Г.Г. Рекреацинное значение климатических ресурсов южного склона Большого Кавказа (между реками Мазымчай и Шинчай) // Silk road international scientific research conference, − Ленкорань: − 2022, − с. 711-715

11. Məmmədova, G.Q. Böyük Qafqazın Cənub yamacı (Mazım-Şin çayları arası) rayonlarının dayanıqlı inkişafında sağlamlıq turizminin rolu // “Bioloji müxtəlifliyin qorunmas və ekoloji cəhətdən dayanql sosial-iqtisadi inkşafa doğru” mövzusunda beynəlxalq elmi konfrans materialları, − Lənkəran: − 2023, − s. 59-61 (Quliyeva, S.S. ilə birlikdə)

12. Məmmədova, G.Q. Böyük Qafqazın cənub yamacının turizm-rekreasiya potensialına təsir edən təbii amillər (Mazımçay və Şinçay çayları arası) // Coğrafiya və təbii resurslar, − Bakı: − 2023. №2 (20), − s. 78-83 (Quliyeva, S.S. ilə birlikdə)

13. Мамедова, Г.Г. Влияние морфометрических показателей рельефа на рекреационный потенциал между Мазымчайем и Шинчайем // Известия Тульского Государственного Университета Науки о Земле и смежные экологические науки», − Тула: − 2023. №2, − s. 17-26.

14. Мамедова, Г.Г. Оценка зкотуризма в горных районах южнова склона Большого Кавказа (между реками Мазымчая и Шинчая) // − Астраханский вестник зкологического образования. Нижневолжский экоцентр, Астрахан: − 2024. №1 (79), − с. 86-94.

Dissertasiyanın müdafiəsi 16 may 2025-ci il tarixində saat 11^00 da AR Elm və Təhsil Nazirliyi BDU nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1148, Bakı ş., Akademik Zahid Xəlilov küçəsi – 33, Bakı Dövlət Universiteti, E-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları info@bsu.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:03.04.2025
Kağızın formatı:A5
Həcm: 40 759
Tiraj:100